# İnsanların sağlamlığının qorunması sosialyönümlü tədbirlər sırasında önəmli yer tutur

*"...Ümumdünya Səhiyyə Təşkilatı bu məlumatı yayıb ki, indi bəzi ölkələrdə yenə maska rejiminə keçmək lazımdır. Biz, əlbəttə ki, bu tendensiyaları izləyirik və biz pandemiyanın ən ağır dönəmində də qapanmaya getmişdik, sonra vəziyyət yaxşılaşanda açılırdıq. Yəni bu, canlı prosesdir". Bu fikirləri Azərbaycan Prezidenti bu ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədə bildirib.*

Hər bir inkişaf etmiş ölkədə olduğu kimi, Azərbaycanın sosialyönümlü dövlət siyasətinin mərkəzində də insan amili dayanır və aparılan islahatlar onların rahat yaşamasına yönəldilib. Ölkədə həyata keçirilən daxili siyasət, ilk növbədə, əhalinin rifah halının yüksəldilməsinə, sosial təminatının yaxşılaşdırılmasına istiqamətlənib. İnsanların sağlam həyat sürməsi, onların sağlamlıqlarının qorunması, təmin edilməsi həyata keçirilən sosialyönümlü tədbirlər sırasında önəmli yer tutur. COVID-19 pandemiyasının tüğyan etdiyi dönəmlərdə də deyilənlərin şahidi olduq.

Ölkədə sosial siyasətin daha uğurla nəticələnməsi məqsədilə 2019-cu ildə icra edilən iki sosial paket 4,2 milyon insanı əhatə etmiş və müsbət nəticələr vermişdir. 2020-ci ildə koronavirus infeksiyası ilə mübarizə dövründə də ölkəmizin həyata keçirdiyi sosial dəstək proqramları diqqətdən kənarda qalmadı. Belə ki, İlham Əliyevin 19 mart 2020-ci il tarixli Sərəncamına uyğun olaraq 10 sosial dəstək proqramının icra edilməsi, koronavirus infeksiyası ilə mübarizə dövründə işsiz qalan insanlara 190 manat birdəfəlik yardımın verilməsi də dövlətin hər bir kateqoriyadan olan insanların yanında olduğunu, onların sosial müdafiəsini təmin etmək üçün zəruri addımlar atdığını təsdiqləyir.

Koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi məqsədilə xüsusi fond yaradılmış və bu fonda 114 milyon manatdan artıq vəsait yığılmışdır. Digər ölkələrlə müqayisədə Azərbaycan iqtisadiyyatı 2020-ci ildən daha az itkilərlə çıxmışdır.

Bu ilin fevralında Prezident İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS Agentliyində bu ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşü zamanı tədbirdə iştirak edən Mehriban xanım Əliyeva Azərbaycanın COVID-19-la necə mübarizə aparması ilə bağlı suala cavabında pandemiyanın yayıldığı ilk dövrdən bu sahədə görülən işlərdən ətraflı danışmış, Azərbaycanda son dalğanın azalmaqda olduğunu vurğulayaraq ölkəmizin xəstəliklə mübarizədə əldə etdiyi təcrübə barədə məlumat vermişdir: "İki ildən bir qədər artıq müddət keçəndən sonra hazırda bizdə müəyyən təcrübə var və mən onu bölüşə bilərəm... Mən hesab edirəm ki, son-




rakı işin uğurlu həyata keçirilməsinin başlıca səbəblərindən biri yəqin ki, çox peşəkar qərargahın, komandanın tez bir zamanda yaradılmasına nail olmağımızdır. Üstəlik, aydın idi ki, burada yalnız tibb işçiləri ilə kifayətlənmək olmaz, diapazon tamamilə genişdir və hökumət üzvləri, ekspertlər, gənc alimlər, xüsusilə riyaziyyatçılardan ibarət qrup toplandı. Çünki artıq o vaxt aydın idi ki, hesablamaq, proqnozlaşdırmaq lazım olacaq".

Doğrudan da, hələ o dövrdə xəstəliklə bağlı vəziyyət kəskinləşməmiş operativ qərarlar qəbul edildi. Güclü, ciddi karantin rejimi tətbiq olundu. Bununla yanaşı, qısa müddətdə daha bir vacib tədbir görüldü. Xaricdən 12 modul tipli xəstəxana alınaraq ölkəyə gətirildi. Zəruri tibbi avadanlıq və dərman vəsaiti alınması məsələsi də diqqətdə saxlanıldı. 2021-ci il yanvarın 18-də isə vaksinasiya işlərinə başlanıldı. Qısa vaxt ərzində Çin, daha sonra isə Rusiya istehsalı olan vaksinlər ölkəyə gətirildi. COVAX layihəsi xətti ilə Avropa vaksinləri də alındı. Əhalinin bu prosesdə kütləvi şəkildə iştirakı təmin edildi. Təbii ki, burada ictimaiyyətin, hər bir fərdin, sakinin dövlət başçısına etimadı da əsas rol oynamışdı.

## Ümumdünya Səhiyyə Təşkilatı maska taxmağı tövsiyə edir

O dövrdə Azərbaycan Prezidenti qlobal səviyyədə insanların sağlamlığının qorunması naminə irəli sürdüyü təşəbbüslərlə də dünya siyasətçiləri arasında xüsusi fərqləndi. Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Prezidenti qlobal pandemiya ilə mübarizə tədbirləri çərçivəsində təkliflər irəli sürərkən ümumbəşəri bəlaya qarşı ən effektiv mübarizədə birgə əməkdaşlığa daha çox üstünlük verilməsinin vacibliyini söyləmiş və bu istiqamətdə fəaliyyət göstərmişdir.

2020-ci ilin aprelində İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının (Türk Şurasının) koronavirusla mübarizəyə həsr olunmuş Zirvə görüşü keçirildi. Dövlət başçısının pandemiyaya qarşı mübarizənin ilk günlərindən irəli sürdüyü "Biz birlikdə güclüyük!" çağırışı ilk dəfə bu Zirvə görüşü zamanı qlobal çevrədə öz real ifadəsini tapdı.

2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşündə İlham Əliyev BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsini təklif etmişdi. Bu təşəbbüsü Hərəkata üzv olan 120 ölkə, o cümlədən BMT-nin 150-dən çox üzv dövləti dəstəkləmiş, dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində sessiya keçirilmişdi.

Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamənin 2021-ci ilin martında yekdilliklə qəbul olunması da tarixi hadisə idi. Çünki bu, dünyada ayrı-seçkiliyi göstərən ilk çıxış idi. Bununla İlham Əliyev peyvənd millətçiliyinə və qeyri-bərabər, ədalətsiz paylanmaya qarşı dünyada həmrəyliyə çağırış edən ilk lider kimi tanındı.

Onu da xatırladaq ki, Azərbaycanın koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları etməsi, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü maliyyə ayırması, dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərməsi də dövlət başçısının təşəbbüsü idi.

Son zamanlar bəzi ölkələrdə meymunçiçəyi xəstəliyinin yayılması ilə bağlı yayılan məlumatlar əhalidə narahatlıq doğurur. Ümumdünya Səhiyyə Təşkilatı yeni pademiya ilə əlaqədar maska taxmağı tövsiyə edir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə, ölkədə koronavirusa qarşı vurulan vaksinlərin sayı 13.825.764 təşkil edir. Ümumi yoluxanların sayı 801.018, avqustun 5-nə olan məlumata əsasən isə gün ərzində yoluxanların sayı 540-dır.

Bütün dünyada olduğu kimi, ölkəmizdə də əhali koronavirusdan qorunmağın yollarını artıq yaxşı bilir. Gigiyenaya əməl edilməli, qoruyucu maskalardan istifadə olunmalı, təbii ki, vaksinləşməyə daha çox üstünlük verilməlidir, çünki bu, istənilən virusdan qorunmanın ən doğru yoludur...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika.- 2022- ci il.- 7 avqust.- S. 2.